1_Layout 1 22.12.2014 16:16 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 24 (442)

24 dekabr 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ

**"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam"**

***Heydər Əliyev, Ümummilli Lider***

**Dünya Azərbaycanlılarının Həmrəylik Günü ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin yaradılması işində mühüm rol oynamaqdadır. Bu bayramın qeyd edilməsi bütün dünya azərbaycanlıları üçün bir zərurətə və mənəvi ehtiyaca çevrilib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü ildən-ilə daha geniş vüsət taparaq ürəklərdə vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır.**

Dünya azərbaycanlılarının birliyi, soydaşlarımızın həmrəyliyi ideyası Ümummilli Lider Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında göstərdiyi tarixi xidmətlərdən biridir. Bu məsələdə xüsusi həssaslıq nümayiş etdirərək ilk addımı Ulu Öndər atıb. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edib. Sonra bu bayramın bütün ölkədə qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul edir.

Dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması milli diasporun formalaşmasında, xarici ölkələrdə Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri oldu.

Azərbaycanlıların həmrəyliyinin həm ölkəmiz, həm də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün xüsusi əhəmiyyət kəsb etdiyini düzgün dəyərləndirən Heydər Əliyev xaricdəki azərbaycanlıların birliyi və təşkilatlanması məsələlərini diqqət mər-



kəzində saxlayırdı.

2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya azərbaycanlılarının birinci qurultayı milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri oldu. Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə və milli həmrəyliyimizin möhkəmlənməsinə yeni təkan verməklə ötən illərin əlamətdar hadisələrindən biri kimi yadda qalıb. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edildi, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktlarının faktlarla dünya ictimaiyyətinə çatdırılması üçün daha müasir metodların hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkildi.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının doğma ata-baba yurdudur. Odur ki, Asiyada, Avropada, Amerikada və digər qitələrdə məskən salmış soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər.

Müstəqil Azərbaycan Respublikası tarix baxımından çox qısa bir dövr ərzində qərinələrə bərabər inkişaf yolu keçib. Bu gün Azərbaycanımız dünyanın iqtisadi cəhətdən ən dinamik inkişaf edən ölkələri sırasındadır. Hüquqi, demokratik dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi məqsədi ilə genişmiqyaslı islahatlar davam etdirilir. İnsan hüquqları və azadlıqları etibarlı surətdə təmin edilir, Azərbaycanın Avropa xalqları ailəsində nüfuzu artır.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin dünya azərbaycanlılarının birləşməsi sahəsində gördüyü prinsipial işlər xalqımız və bütün dünya azərbaycanlıları tərəfindən yüksək qiymətləndirilir. Məhz bu mənəvi birlik və milli həmrəylik dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə və bu yolda yeni uğurlar qazanılmasına xidmət edir. Yola saldığımız 2014-cü il də Azərbaycanın həyatında bir sıra uğurları ilə yadda qalacaqdır. Böyük əminliklə demək olar ki, qarşıdakı illər Azərbaycan üçün daha uğurlu və daha böyük nailiyyətlərlə dolu olacaqdır.

# AZƏRBAYCAN XALQI PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ ALTINDA HƏLƏ ÇOX UĞURLARA İMZA ATACAQ



## Dekabrın 24-ü Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin doğum günüdür

**İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub.**

1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxuyub.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olub.

MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olub.

1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi alıb.

1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləyib.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olub. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak edib.

Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilib. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verib.

1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilib.

1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilib.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olub.

2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilib.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilib.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib. Keçirilən seçkilərdə seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs verib. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlayıb.

2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilib.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73% səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlayıb.

2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə seçicilərin 84,54% səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 2013-cü il oktyabrın 19-da vəzifəsinin icrasına başlayıb.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Evlidir. Üç övladı, üç nəvəsi var.

### Prezident İlham Əliyevin təltif olunduğu orden, mükafat və fəxri adlar:

"Heydər Əliyev" ordeni (Azərbaycan Respublikası), "Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı" mükafatı (Türkiyə), "Rumıniya Ulduzu" Ordeni (Rumıniya), "Kral Əbdüləziz" Ordeni (Səudiyyə Ərəbistanı Krallığı), "Şərəf" Ordeni (Gürcüstan), "Şərəf Legionunun Böyük Xaçı" Ordeni (Fransa), "Şeyxülislam" Ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin "Prepodobnıy Serqiy Radonejskiy" birinci dərəcəli Ordeni, "Böyük Kordon" Şərəf Ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının "Şərəf Ordeni", FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni (Polşa), "I dərəcəli Knyaz Yaroslav Mudrı" ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt Dövləti), Yunanıstan parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi, "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı (Rumıniya), "İsmoili Somoni" ordeni (Tacikistan).

Linkoln Universitetinin Fəxri Doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri Doktoru, L.N.Qumilyov - Avrasiya Milli Universitetin Professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri Doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri Doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri Doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri Professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri Doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri Doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri Doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri Professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri Doktoru (Ukrayna), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri Professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri Doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri Professoru (Belarus Respublikası), Ankara Universitetinin Fəxri Dokrotu (Türkiyə), Çukurova Universitetinin Fəxri Doktoru (Türkiyə).

***Cabir Novruz***

## *AZƏRBAYCANI SEVİN, SEVİN AZƏRBAYCANI!*

*Azərbaycanı sevin, sevin Azərbaycanı,*
*Bu gün odlu sevgiyə onun ehtiyacı var.*
*Sevin odun, ocağın, evin Azərbaycanın,*
*İndiki dərdlərinə eşqimiz əlac olar.*

*Yaraları göynəyir, yaraları sızlayır,*
*Bu millətin qeyrətli oğulları, qızları,*
*Sevgimiz xilas edər bu gün Azərbaycanı,*
*Azərbaycanı sevin, sevin Azərbaycanı!*

*O bizim hamımızın həyəcanı, harayı,*
*Bir də axı kim yanar ona bizdən savayı.*
*O bizim ruhumuzda, o bizim qanımızda,*
*Yalnız bir keçməliyik uğrunda*
*canımızdan.*
*Can istəsə can verin, sevin Azərbaycanı,*
*Qan istəsə qan verin, sevin Azərbaycanı,*
*Azərbaycanı sevin, sevin Azərbaycanı!*

*Dünyada vallah belə talesiz millət olmaz,*
*Nə qədər saxlayarlar girov Azərbaycanı.*
*Bu qədər bölgü olmaz,*
*bu qədər sərhəd olmaz,*
*Bəs nə vaxt görəcəyik,*
*bütöv Azərbaycanı?!*

*Ona övlad payını bizlər verə bilmədik,*
*Heç iki obasını birləşdirə bilmədik.*
*Astara qovuşmadı doğma Astarasına,*
*Culfaların bir məlhəm tapmadıq yarasına.*

*Öz doğma yurd-yuvamdır*
*"yadın" Azərbaycanı,*
*Biz bacara bilmədik, ey gələcək nəsillər,*
*Ey gələcək nəsillər, barı təzə əsrdə*
*Bir-birinə calayın, qatın Azərbaycanı,*
*Köküm, soyum, soyadım,*
*adım Azərbaycanı.*

*Haçandır öz-özündən aralı bir ölkədir,*
*Şəhidli bir ölkədir, yaralı bir ölkədir.*
*Az imiş, o təzədən bölünür, parçalanır,*
*Təbriz dərdi üstünə Şuşa dərdi calanır.*
*Neçə yerə ayrılar, ya ilahi, bir bədən,*
*Xırda bir məkan qalıb*
*o boyda bir ölkədən.*
*Tamam bitər, tükənər,*
*belə getsə, amandı,*
*Axı o bir zamanlar nəhəng*
*Azərbaycandı.*

*Əsrlərlə talayıb, biçib Azərbaycanı,*
*Bizə miras qoydular kiçik Azərbaycanı.*
*Ay bizdən ola-ola, bizə yağı olanlar,*
*Vətənə sevgidə də öz marağı olanlar,*
*Xalqına xidmətdə də tamah gəzən dəlilər*
*Özümüzdən olanlar, özümüzə qənimlər.*
*Siz də qeyrətə gəlin, imana, dinə gəlin,*
*Vətən bağışlar sizi, Vətən eşqinə gəlin.*
*O sizə çörək verib, nəzir-niyaz eyləyib,*
*Yalnız onun sevgisi sizi xilas eyləyər.*

*Sevməyirsizsə barı, boğazına çökməyin,*
*Sevməyirsizsə barı, ayağından çəkməyin,*
*Bu ulu məhəbbətə çağırıram hər kəsi.*
*Divin canı şüşədə, onun bizdədir canı,*
*Məndən çox sevirsiniz*
*bu torpağı, bu canı,*
*Amma təkrar deyirəm,*
*sevin Azərbaycanı, sevin Azərbaycanı!*

2_Layout 1 22.12.2014 16:19 Page 1



# BÜTÜN VARLIĞI İLƏ XALQA BAĞLI OLAN DAHİ RƏHBƏR

*Hansı sahəyə diqqət etsək, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin yaratdıqlarını - onun Şah əsəri: müstəqil Azərbaycanı görürük...*



**Dekabr ayının 12-də DİN-in Daxili Qoşunlarının Baş İdarəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım mərasimi keçirildi. Mərasimdə Daxili Qoşunların Komandanlığı ilə yanaşı, millət vəkili Zahid Oruc, siyasi elmlər doktoru, professor Elman Nəsirov da iştirak etmişlər.**

Tədbir dahi liderin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması və Dövlət Himninin ifa olunması ilə başladı. Daha sonra Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən film nümayiş olundu.

Filmin nümayişindən sonra «Heydər Əliyevin həyat və fəaliyyəti hər birimiz üçün örnəkdir» mövzusunda çıxış üçün söz millət vəkili Z.Oruca verildi. Ulu Öndər Heydər Əliyevi tarixdə iz qoyan müstəsna insan kimi qiymətləndirən millət vəkili Heydər Əliyev adının və onun missiyasının növbəti əsrlərə, nəsillərə ötürüləcəyini əminliklə vurğuladı. Heydər Əliyev şəxsiyyətinin hər zaman xatırlanacağını söyləyən Z.Oruc dahi rəhbərə münasibətin əslində insanlıq və mənəvi kimlik məsələsi olduğunu bildirdi. Onu olduqca sadə, mərd, istedadlı, təvazökar, bir sözlə, mükəmməl insan kimi dəyərləndirən millət vəkili Ulu Öndərin eyni zamanda bütün varlığı ilə xalqına bağlı olduğunu, "ayrılarmı, könül candan" deyərək qəhrələnən Liderin bunlarla da öz taleyini, cismində və ruhunda daşıdığı Vətəni hər kəsə anlada bildiyini qeyd etdi:



"İki dövrün qəhrəmanı olmur, amma xalq sevgisi və tarix Heydər Əliyevi həm sovet dövrünün, həm də azadlıq dövrünün qəhrəmanına çevirdi".

Sonra professor E.Nəsirov "Heydər Əliyev və azərbaycançılıq ideyası" mövzusunda çıxış etdi. O, yaxın keçmişimizin hər səhifəsində Heydər Əliyevin imzasının, fədakar xidmətinin olduğunu bildirdi: "Azərbaycanın bütün sahələrinin inkişafı, o cümlədən nizami ordunun yaranması, formalaşması məhz Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsində baş vermişdir. Hələ sovet dönəmində Cəmşid Naxçıvanski adına Hərbi Litsey məhz onun diqqət və qayğısı sayəsində qısa zaman ərzində ən müasir təhsil müəssisələrindən birinə çevrildi".

Heydər Əliyev ideyalarının bu gün də yaşadığını söyləyən professor seçilmiş siyasi xətt sayəsində bu inkişafın bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Sonda çıxış üçün söz Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədova verildi.

O, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışarkən diqqətə çatdırdı ki, hansı sahəyə diqqət etsək, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin yaratdıqlarını - onun şah əsəri-müstəqil Azərbaycanı görürük: "Ulu Öndərin ölkəyə rəhbərliyi sayəsində respublikada yaranmış vətəndaş müharibəsinə son qoyuldu, sabitlik yarandı, asayiş bərpa olundu və ən nəhayət Azərbaycan iqtisadiyyatı yenidən qurularaq günü-gündən inkişaf etdi. Ulu Öndər üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah durdurdu. Bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı".

Cənab Komandan Ümummilli Lider Heydər Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdi. Bunun üçün biz hərbçilərin üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edən Daxili Qoşunların Komandanı bundan sonra da Ulu Öndərimizin ideyalarına sadiq olmağı, Vətənimizi Heydər Əliyev kimi sevməyi, dövlətimizə, dövlətçiliyimizə qarşı çıxanlarla barışmaz olmağı tövsiyə etdi. O, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında sıx birləşməyi, dövlət başçısının əmr və göstərişlərini sözsüz yerinə yetirməyə hər an hazır olmağa borclu olduğumuzu vurğuladı.

Sonda bir daha vurğulandı ki, Heydər Əliyev sözün əsl mənasında bütöv bir əsrin - XX əsrin şəxsiyyəti idi. Onun əməlləri bundan sonra da gələcək nəsillərə təlqin olunacaq və hər bir azərbaycanlı Heydər Əliyev məktəbindən bəhrələnəcəkdir.

**leytenant X.Tağıyeva**

# HƏRBİ HİSSƏNİN DÖYÜŞ HAZIRLIĞI VƏ NİZAM-İNTİZAMI YÜKSƏK SƏVİYYƏDƏDİR

*Şəxsi heyət tapşırıqların icrasına məsuliyyətlə yanaşır*

**Daxili Qoşunlar digər daxili işlər orqanları ilə birlikdə şəhərlərdə və yaşayış məntəqələrində post-patrul xidməti vasitəsi ilə ictimai asayişin qorunmasında, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında fəal iştirak edir. Respublikamızın cənub bölgəsində sadalanan bu mühüm vəzifələri 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi uğurla həyata keçirir.**

Döyüş tapşırığı yerinə yetirilərkən dəstənin şəxsi heyətinin fiziki hazırlığı ilə yanaşı, mənəvi-psixoloji durumu da əsas şərtlərdəndir. Bu işdə dəstənin tərbiyə işləri üzrə müavini mayor İramin Məsimov əlindən gələni əsirgəmir. Mayor İ.Məsimov dəstənin təyinatı və üzərinə düşən vəzifələr barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, kütləvi tədbirlər, həmçinin digər həvalə olunmuş tapşırıqlar zamanı hərbi qulluqçularda ruh yüksəkliyinin olması vacib amillərdəndir. Görülən işlərdən söz açan komandir müavini dəstədə şəxsi heyətlə tərbiyə işinin hərbi andın, Daxili İşlər Nazirinin, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmr və göstərişlərinin əsasında qurulduğunu bildirdi. O, hərbi qulluqçuların Vətənə, hərbi anda sədaqət hissinin, hərbi xidmətin çətinliklərinə mətanətlə dözmək qabiliyyətinin, eləcə də hərbi biliklərə dərindən yiyələnmək və hərbi nizamnamələrin tələblərinə ciddi riayət etmək kimi keyfiyyətlərin formalaşması ruhunda tərbiyə olunduqlarını söylədi. Bu çətin, lakin məsuliyyətli vəzifədə ona yaxından köməklik göstərən baş leytenant Ramin Pirməmmədova, leytenant Səxavət Qasımova, leytenant Rəşadət Nəcəfova, baş çavuş Ravil Qədirova, çavuşlar Elmar Əhmədova və Qəhrəman Alıyevə minnətdarlığını ifadə etdi.



Bu baxımdan əminliklə demək olar ki, regionda daxili sabitliyin və ictimai asayişin sadiq keşikçisi olan Daxili Qoşunların hərbi qulluqçuları nizam-intizamı ilə gənc nəslə örnəkdir.

## MINAATAN BATAREYA

"Daxili Qoşunların Statusu haqqında" Azərbaycan Respublikasının Qanununda həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir.

Döyüş əməliyyatlarında əsas istifadə olunan sahələrdən biri də minaatan batareyadır. Batareyanın üzərinə düşən tapşırıqlar şəxsi heyətin maneəsiz irəliləyişi üçün yaylım atəşlə düşmənin dərinliyini dağıtmaq və həmin mövqelərdə qarşı tərəfin canlı qüvvəsini məhv etməkdir. Düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölüyün sərbəst irəliləməsinə əlverişli şərait yaradır.

Nəzəri biliklərin aşılanmasından sonra şəxsi heyətin praktiki məşğələsində mən də iştirak etdim. Minaatan batareyanın komandiri vəzifələrini icra edən leytenant Emin Quliyev bir sıra məqamlara aydınlıq gətirdi. O, döyüş vaxtı kəşfiyyatçının əks tərəfin görünməyən hədəflərinin yerini müəyyən etdiyini, koordinatların idarəetmə məntəqəsinə ötürüldüyünü, verilmiş bucağa əsasən nişangahın qurulduğunu və busola tuşlandığını dedi. Sonra xətt boyunca atəş açılır və beləliklə, düşmən məhv edilir.



Leytenant E.Quliyev şəxsi heyətin istər nəzəri, istərsə də praktiki məşğələlərə böyük həvəslə yanaşdığını sözlərinə əlavə etdi. Batareya komandiri verilmiş tapşırıqların öhdəsindən layiqincə gələn baş çavuş Cəsarət Şəmiyevin, əsgərlər Qəzənfər Sultanovun, Hilal Eminalıyevin və Sahib Tağıyevin adlarını çəkməyi də unutmadı.





## AVTOMOBİL VƏ ZİREHLİ TEXNİKA XİDMƏTİ

Hərbi hissədə döyüş tapşırıqlarının müvəffəqiyyətlə və vaxtında yerinə yetirilməsində Avtomobil və zirehli texnika xidmətinin rolu danılmazdır. Avtomobil və zirehli texnika xidmətinin rəisi baş leytenant Həsən Mirzəyev söhbət əsnasında nəqliyyat vasitələrinin daima saz vəziyyətdə saxlanılması məqsədilə ildə iki dəfə mövsümi texniki qulluğun göstərildiyini söylədi. O, təhkim olunmuş regionun əsasən dağlıq zonalardan ibarət olduğunu bildirərək, 2 və 3 aparıcı körpüdən ibarət olan avtomobillərə xüsusi olaraq diqqət yetirildiyini vurğuladı: "Transmissiyanın yağlarının dəyişdirilməsinə, düzgün və vaxtında texniki qulluğun göstərilməsinə nəzarət olunur. Bundan başqa, kütləvi tədbirlər zamanı şəxsi heyətin daşınması, xüsusi avtomobillərin cəlb olunması həyata keçirilir. Şəxsi heyətin vaxtında təyin olunmuş yerə aparılması tərəfimizdən təmin olunur. Beləliklə, hərbi hissənin döyüş hazırlığının daima yüksək səviyyədə qorunub saxlanılmasında Avtomobil və zirehli texnika xidməti üzərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlir".

Bir sözlə, 25033 saylı hərbi hissə daha bir ili - 2014-cü ili uğurla başa vurur. Yeni ildə yeni-yeni nailiyyətlər uğrunda!

**baş leytenant T.Əlizadə**

# İKİ BEYNƏLXALQ TURNİR - İKİ QIZIL MEDAL

***Yola saldığımız 2014-cü il Daxili Qoşunların tarixində idman nailiyyətləri ilə də yadda qaldı. İl ərzində demək olar ki, Daxili Qoşunların hərbi qulluqçuları həm beynəlxalq, həm də yerli yarışlarda ölkəmizin və Daxili Qoşunların adını yüksəklərə qaldırmağı bacarıblar.***

Növbəti sevindirici xəbərlər Rusiya və Qazaxıstandan gəldi.



Daxili Qoşunların hərbi qulluqçusu **gizir Vüsal Gözəlov** daha bir yarışda qələbə qazanıb. Belə ki, dekabr ayının 4-dən 8-dək Həştərxan şəhərində keçirilən boks üzrə beynəlxalq yarışda hərbi qulluqçumuz ən ağır çəkidə bütün rəqiblərini üstələməyi bacarıb. İlk görüşünü dekabr ayının 5-də keçirən gizir V.Gözəlov cəmi 30 saniyə ərzində heç bir əziyyət çəkmədən rəqibini məğlub edib. Yerli idmançı M.Babanini nakautla məğlub edərək, final mərhələsinə yüksələn idmançımızın növbəti rəqibi Qazaxıstan təmsilçisi olub. Nisbətən ağır keçən bu görüşdə xal hesabı ilə bayrağımızı yüksəklərə qaldıran hərbi qulluqçumuz vətənə diplom, kubok və medallarla qayıdıb.



Digər hərbi qulluqçumuz **gizir Natiq Allahyarov** da xaricdə keçirilən beynəlxalq yarışdan Vətənə qızıl medalla dönüb. 67987 saylı hərbi hissənin hərbi qulluqçusu gizir N.Allahyarov 12-14 dekabr tarixində Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən idmanın ciu-citsu növü üzrə Avrasiya çempionatında birinci yerə layiq görülüb. 76 kq çəki dərəcəsində bütün rəqiblərinə gücünü göstərməyi bacaran Avrasiya çempionumuz diplom, kubok və qızıl medalla mükafatlandırılıb.

Hər iki hərbi qulluqçumuzu ürəkdən təbrik edir, onlara bundan sonrakı bütün yarışlarda yalnız və yalnız qələbə arzulayırıq.

**leytenant X.Tağıyeva**

# YIĞMAMIZ YARIŞDAN QALİB AYRILDI

Daxili Qoşunlar daha bir uğurlu nəticəni dekabr ayının 11-dən 13-dək daxili işlər orqan və hissələri arasında keçirilən yarışda əldə edib. İdmanın əlbəyaxa döyüş növü üzrə keçirilən turnirdə yığma komandamız 9 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Yarışda şəxsi birincilikdə bütün rəqiblərini geridə qoyan çavuş Ramin Orucov (70 kq. 99713 saylı hərbi hissə), leytenant Pərvin Əliyev (75 kq. 16073 saylı hərbi hissə) və baş əsgər Dəyanət Xudaverdiyev (80 kq. 67987 saylı hərbi hissə) 1-ci yeri tutublar. Fəxri kürsüyə gedən yolun son pilləsində büdrəyən leytenant Şahin Göyüşov (65 kq. 99713 saylı hərbi hissə) və leytenant Şamil Gülmalıyev (+90 kq. 67987 saylı hərbi hissə) 3-cü yerə layiq görülüblər. Ümumilikdə, 9 iştirakçıdan 5-i medalla təltif edilib. Daxili Qoşunların yığması komanda birinciliyində II yeri tutub.

**baş leytenant T.Əlizadə**

3_Layout 1 22.12.2014 16:21 Page 1



# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ HƏRBİ QULLUQÇULARININ ETİK DAVRANIŞ QAYDALARI

## I. Ümumi müddəalar

**1.1.** Daxili Qoşunların hərbi qulluqçu - larının etik davranış qaydaları (bundan sonra - Qaydalar) Daxili Qoşunlarda xidmət edən hərbi qulluqçuların etikası və xidmətdənkənar davranışının normalarını, prinsiplərini və onlara əməl edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, BMT-nin «Hüquq mühafizə orqanlarının davranış məcəlləsi»nə və «Dövlət qulluqçularının etik davranışı haqqında» Azərbaycan Respublikasının Qanunlarına, «Daxili Qoşunların Statusu haqqında» Azərbaycan Respublikasının Qanununa, korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyə, «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı»na müvafiq olaraq hazırlanmışdır.

- Hərbi qulluqçu: Hərbi Anda, xidməti borcuna sadiq olmalı, vətəndaşların həyat və sağlamlığının, hüquq və azadlıqlarının, cəmiyyətin və dövlətin maraqlarının hüquqazidd qəsdlərdən qorunmasına görə öz şəxsi məsuliyyətini hiss etməlidir.
- daim yadda saxlamalıdır ki, hətta bir hərbi qulluqçunun Andını pozması, xidməti borcunu yerinə yetirməməsi və nalayiq hərəkətə yol verməsi, bir çox hərbi qulluqçunun nümunəvi xidməti və yüksək intizamı hesabına əldə olunmuş uğurlara və nüfuza kölgə sala bilər.
- etik davranış qaydalarını dərindən öyrənməli və onun tələblərinə sözsüz əməl etməlidir. Bu barədə üzərinə götürdüyü öhdəlik (əlavə №1).

## II. Hərbi qulluqçuların etik davranış prinsipləri

**2.1.** İnsanların hüquqlarına, azadlıqlarına, qanuni maraqlarına, şərəf və ləyaqətinə, işgüzar nüfuzuna hörmət prinsipi – Daxili Qoşunlarda xidmət edən hərbi qulluqçu unutmamalıdır ki, onun fəaliyyətinin əsas məqsədi insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına (qorunmasına və müdafiəsinə) xidmət etməkdir.

İnsanların hüquq və azadlıqlarını pozan, qanuni maraqlarına zidd olan, onların şərəf və ləyaqətinə, həmçinin işgüzar nüfuzuna xələl gətirə biləcək qərarlar qəbul etməməli, hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

**2.2.** Qanunçuluq prinsipi - vəzifələrin icrası zamanı Azərbaycan Respublikası Konstitusiyanın, Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquqi aktların, «Daxili Qoşunların Statusu haqqında» Azərbaycan Respublikası Qanununun və digər normativ hüquqi aktların tələblərinə ciddi əməl etməlidir.

**2.3.** Loyallıq prinsipi - xidməti vəzifə - sinə aid olmadığı halda, Daxili Qoşunların və digər dövlət orqanlarının, eləcə də onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və fəaliyyətlərinə ictimai qiymət verilməsin - dən çəkinməlidir.

**2.4.** Vicdanlı davranış prinsipi - insanların, cəmiyyətin və dövlətin maraqları naminə öz xidməti vəzifələrini səmərəli yerinə yetirməli, bütün hallarda başqalarına vicdanlılıq nümunəsi olmalıdır.

**2.5.** Qərəzsizlik prinsipi - Xidməti vəzifəsini yerinə yetirərkən, o cümlədən qərar qəbul edərkən qərəzsiz olmalı, bu zaman irqinə, milliyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, dinə münasibətinə, əqidəsinə, ictimai və ya digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə yaxud belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.

Özünün və ya maraqlı şəxslərin mənafeyi xidməti vəzifələrin yerinə yetirilməsində təsir göstərməməli və buna şərait yaratmamalı, öz qulluq vəzifələrindən kənar, o cümlədən başqa hərbi qulluqçuların səlahiyyətlərinə aid məsələlərə müdaxilə etməməlidir.

Peşə fəaliyyəti ilə əlaqədar iradları, tənqidi fikirləri qəbul etməli, qiymətləndirməli və onlardan düzgün nəticə çıxarmalı, səmimi, çalışqan, intizamlı, təşəbbüskar və hər zaman səliqəli olmalı, xarici görkəminə xüsusi fikir yetirməlidir.

**2.7.** İctimai etimad prinsipi - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında qulluğun nüfuzunu möhkəmləndirməli, hərbi qulluqçu adını, şərəf və ləyaqətini uca tutmalıdır. Etik davranış qaydalarını pozduqda onun nəticələrini aradan qaldırmalı, ictimai etimadın bərpası üçün tədbirlər görməlidir.

**2.8.** Peşəkarlıq və fərdi məsuliyyətin artırılması prinsipi - öz qulluq borcunun məsuliyyətini dərindən dərk etməli, ixtisasını artırmalı, rəhbər işçilər, həmçinin, qulluq vəzifələrini yerinə yetirərək işçilərin nəzəri biliklərinin və peşəkarlıq səviyyəsinin artırılması üçün tədbirlər görməlidir.

## III. Hərbi qulluqçuların korrupsiyaya qarşı davranışı

**3.1.** Qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməli, həmçinin onun hərəkətlərinin (hərəkətsizliyinin) və ya qərarlarının maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

**3.2.** Qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduqda onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər hərbi qulluqçudan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəisinə (komandirinə) məlumat verməlidir (maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər akt üzrə təhvil verilir).

**3.3.** Xidməti vəzifələrinə qərəzsiz təsir edə bilən, bu cür təsir təəssüratı yaradan, vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və digər şəxslər üçün tələb və ya qəbul etməməlidir. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

**3.4.** Maraqlar toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda həmin maraqların xarak - teri barədə Daxili Qoşunların rəhbərliyinə məlumat verməli və maraqlar toqquşma - sının qarşısının alınması üçün tədbirlər görməlidir.

Hərbi qulluğa qəbul edilərkən və xid - mət müddətində etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə və maraqlar toqquşmasının qarşısının alınması ilə əlaqədar normativ-hüquqi və normativ xarakterli aktlarla tanış olmalıdır.

## IV. Hərbi qulluqçuların xidməti davranışı

**4.1.** Daxili Qoşunlarda xidmət edən hərbi qulluqçuların xidməti davranışı qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə ye - tirilməsi ilə əlaqədar fəaliyyətdir və bu Qaydalarla müəyyən edilmiş etik davranış normalarına və prinsiplərinə əsaslanmalıdır.

Xidməti davranış bu Qaydalar və digər normativ hüquqi və normativ xarakterli aktlar ilə tənzimlənir.

**4.2.** Xidməti borcu yerinə yetirərkən icra və əmək intizamına əməl etməli, iş vaxtını kənar işlərə sərf etməməli, üzrsüz səbəbdən işdən kənarlaşmamalı, cəsur, qorxmaz və qətiyyətli olmalıdır. Cinayət və digər hüquqazidd əməllərin qarşısını alarkən, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, başqalarının həyat və sağlamlığını təhlükə altında qoymamalıdır.

**4.3.** Xidməti vəzifələrinin icrası zamanı qərar qəbul edərkən prinsipial, qə - rəzsiz, səmimi, obyektiv və özünə qarşı tələbkar olmalı, məsələyə aidiyyəti olmayan amillərin təsiri altına düşməməlidir.

**4.4.** Vətənpərvərlik, yoldaşlıq və qarşılıqlı yardım, cəsurluq və təmənnasızlıq, alicənablıq və fədakarlıq, xidməti borca sədaqət və peşəkarlıq, xeyirxahlıq və veteranlara hörmət ənənələrini qorumalı və inkişaf etdirməlidir.

**4.5.** Birbaşa və ya yuxarı rəhbərin qanuna uyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməlidir.

Birbaşa və ya yuxarı rəhbər tərəfindən ona verilən əmrin, sərəncamın və ya tap - şırığın qanuna və ya digər normativ-hüquqi akta zidd olmasına əmindirsə, bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməli və yazılı şəkildə təsdiq olunmasını tələb etməlidir.

Birbaşa rəhbərindən yazılı şəkildə təsdiq edilmiş əmr, sərəncam və ya tapşırıq almasına baxmayaraq, onların qanuna, yaxud digər normativ hüquqi akta zidd olmasına inanmaqda davam edərsə, o, həmin əmr, sərəncam və ya tapşırığı yerinə yetirməkdən imtina edə bilər. Qanuni göstərişlərin yerinə yetirilməməsi intizam məsuliyyətinə səbəb olur.

**4.6.** Heç bir siyasi partiyaya üzv olmamalı, siyasi fəaliyyətlə məşğul olma - malı və digər hərbi qulluqçuları da buna təhrik etməməlidir.

**4.7.** Subordinasiya qaydalarına riayət etməli, şikayət halları istisna olmaqla, yuxarı orqana birbaşa rəhbəri vasitəsilə müraciət etməlidir.

**4.8.** Xidməti vəzifəsi ilə bağlı tədbirlərdə iştirakı barədə bilavasitə rəhbərini əvvəlcədən məlumatlandırmalıdır.

4.9. İstifadəsində olan dövlət əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompüter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və başqa maddi - texniki təchizat avadanlıqlarından qənaətlə və səmərəli istifadə etməli, şəxsi maraqları naminə, habelə xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etməməlidir.

**4.10.** Tabelikdəkilər barəsində təşkilati - sərəncamverici səlahiyyətlərə malik olduqda onlar tərəfindən peşə etikası normalarına və xidməti davranış qaydalarına əməl olunmasını təmin etməlidir.

**4.11.** Xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə etməməlidir. Dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən işdən çıxdıqdan sonra da saxlamalıdır.

**4.12.** İş qrafikinə və zərurət yarandıqda tətbiq olunan xüsusi xidmət rejiminə ciddi riayət etməli, xidmət yerinə vaxtında gəlib vaxtında getməli, üzrsüz səbəbdən xidmətdən kənarlaşmamalı, fövqəladə hallar istisna olmaqla, birbaşa rəislərin icazəsi olmadan xidmət yerini tərk etməməlidir.

Birbaşa rəislərinin ilk çağırışı ilə, eləcə də, təbii fəlakətlər, genişmiqyaslı texnogen qəzalar, yanğınlar, iğtişaşlar və sair fövqəladə hadisələr baş verdikdə çağırışsız xidmət yerinə gəlməlidir. Xidmətdə olarkən vaxtını kənar işlərə sərf etməməlidir.

**4.13.** Yaşayış yeri və anket məlumatlarında dəyişikliklər baş verdikdə bu barədə dərhal xidmət etdiyi orqanın rəisini məlumatlandırmalıdır. Müəyyən edilmiş qaydada icazə almadan yaşadığı qarnizonu tərk etməməli, məzuniyyətə çıxarkən məzuniyyətini keçirəcəyi yeri bildirməlidir. Yaxın qohumunun məhkum olunması haqqında ona məlum olduğu vaxtdan bir ay müddətində xidmət etdiyi orqanın rəhbərliyinə məlumat verməlidir.

**4.14.** Xidməti vəsiqəsinin saxlanması və gəzdirilməsinə məsuliyyətlə yanaşmalıdır.

## V. Hərbi qulluqçuların xidmətdənkənar davranışı

**5.1.** Şəxsi həyatında ümumi qəbul olunmuş milli əxlaq, ictimai davranış normalarına əməl etməlidir.

**5.2.** İcra etmək imkanı olmayacağı təqdirdə öhdəliklər (kredit, borc pul, kirayə və s.) götürməməlidir. Üzərinə götürdüyü öhdəliklərin şərtlərinə ciddi riayət etməlidir.

**5.3.** Sağlam həyat tərzi keçirməli, həkim təyinatı istisna olmaqla, sərbəst dövriyyəsi qadağan edilmiş və ya məhdudlaşdırılmış narkotik vasitələr və psixotrop maddələr qəbul etməməli, xidmət vaxtı, habelə xidmətdənkənar xidməti geyim formasında olarkən spirtli içkilər içməməli, onları xidmət yerinə gətirməməlidir. Xidmətdənkənar vaxtlarda spirtli içkilər qəbul edərkən özünü idarə etməyi bacarmalı, həddini bilməli, şərəf və ləyaqəti alçaldan, eləcə də ertəsi gün xidməti vəzifələrinin layiqincə yerinə yetirilməsinə mane ola biləcək dərəcədə spirtli içkilər qəbul etməməli, xidmətə gələrkən alkoqolun təsirindən tam azad olmalıdır.

**5.4.** Öz ailə üzvlərinin, habelə sosial və digər münasibətlərin onun xidməti fəaliyyətinə nüfuz etməsinə yol verməməlidir. Cəmiyyətdə qəbul olunmuş ailə-məişət normalarına riayət etməli, ailəsinin, o cümlədən, uşaqlarının və valideynlərinin qayğısına qalmalı, nikahda sədaqətli olmalı, qadın-kişi münasibətlərində riyakarlığa və ictimai mənəviyyata zidd hərəkətlərə yol verməməli, eləcə də başqalarını da buna sövq etməməlidir.

**5.5.** Vəzifəsindən və qulluq mövqeyindən şəxsi məqsədlər üçün istifadə etməməli, xidməti zərurət olmadıqda hərbi qulluqçu olduğunu qabartmamalı, xidməti vəsiqəsini təqdim etməməlidir.

## VI. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması

**6.1.** Etik davranış qaydalarına əməl olunmasına Daxili Qoşunların Baş İdarəsi tərəfindən nəzarət edilir.

**6.2.** Etik davranış qaydalarına əməl edilməsi ilə bağlı aşağıdakılar həyata keçirilir:

- xidməti davranış qaydalarına riayət edilməsinin vəziyyəti hər hesabat dövrünün yekununda təhlil edilməlidir;
- etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər müəyyən edilməlidir;
- etik davranış qaydaları izah edilməli və tövsiyələr verilməlidir;
- etik davranış qaydalarını pozanların intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görülməlidir;
- etik davranış qaydalarının pozulması halları ilə bağlı həyata keçirilmiş tədbirlər barədə maraqlı tərəflər məlumatlandırılmalıdır;
- etik davranış qaydalarına əməl olunması ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələr yerinə yetirilməlidir.

**6.3.** Etik davranış qaydalarının pozulması intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır və intizam məsuliyyətinə cəlb edilmə qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

**6.4.** Bu Qaydaların pozulması barədə şikayət və ya digər məlumat daxil olduqda xidməti yoxlama başlanıla bilər. Barəsində xidməti yoxlama aparılarkən hərbi qulluqçu ona verilən sualları tam, səmimi və obyektiv cavablandırmalıdır.

**6.5.** Xidməti yoxlama zamanı yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş vəzifəli şəxs bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.

**6.6.** Daxili Qoşunlarda xidmət edən hərbi qulluqçuların etik davranışı ilə bağlı bu Qaydalarda nəzərdə tutulmayan məsələlər "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

# MƏSULİYYƏT - UĞUR ƏLDƏ ETMƏYİN BİRİNCİ ŞƏRTİ

***Daxili Qoşunların Mətbəəsinin hərbi qulluqçuları hesab edir ki, hər kəs öz işini sevməli, bu istiqamətdə əlindən gələni əsirgəməməlidir***

**Qəzet, jurnal anlayışları meydana gələndən təbii ki, çap üçün zəruri olan mətbəə avadanlıqları artıq mövcud idi. Elmi-texniki tərəqqi nə qədər inkişaf etsə də, mətbəələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Müasir dövrümüzdə demək olar ki, iri müəssisələr, şirkət və təşkilatlarda zəruri dəftərxana tələbatlarını ödəmək məqsədilə mətbəələr yaradılıb.**

Bu gün Azərbaycanın güc strukturlarının böyük əksəriyyətində- Müdafiə Nazirliyində, Dövlət Sərhəd Xidmətində, Daxili İşlər Nazirliyində, o cümlədən Daxili Qo - şunlarda müasir dövrün tələblərinə cavab verən mətbəələr fəaliyyət göstərir.

Daxili Qoşunlarda mətbəə işinin təşkilinin vəziyyəti barədə material hazırlamaq məqsədilə Daxili Qoşunların Baş İdarəsinin nəzdində fəaliyyət göstərən mətbəədə ol - dum. Mətbəə xidmətinin rəisi baş leytenant Tural Qurbanov bu sahənin çox həssas və məsuliyyətli olduğunu bildirdi. Həmsöhbətim vurğuladı ki, mətbəə Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən, əmr və göstərişlərin, normativ aktların, jurnalların, blankların, digər sənədlərin çapı və çoxaldılması işlərini həyata keçirir. Mətbəə fəaliyyətini DQBİ-nin idarə, şöbə və xidmətlərdən daxil olan ra - portlara əsasən təşkil edir.

Müasir dövrün tələblərinə cavab verən mətbəədə quraşdırılmış texniki təchizat çap işinin daha keyfiyyətli və səmərəli həyata keçirilməsinə şərait yaradır.

Mətbəə rəisinin qeyd etdiyi kimi, çap işinin özünəməxsus incəlikləri var. Məsələn, istifadə olunan rən - gin, eləcə də kağızın keyfiyyətli ol - ması işin nəticəsinə birbaşa təsir edən amillərdəndir. Ona görə də





rənglər, kağızlar alınarkən onların keyfiyyət göstəricilərinə üstünlük verilir. Mətbəə xidmətində çap prosesi təbii ki, müvafiq plana uyğun olaraq yerinə yetirilir. Çap prosesi ayda iki, yaxud üç dəfə həyata keçirilir. İşin keyfiyyətli olması üçün kəsiləcək kağızların, kartonların, hazır kitabların və jurnalların kəsilmə ölçülərinin dəqiq təyin edilməsi vacib şərtlərdəndir. Çap maşınında işləyərkən, yaxud ona texniki qulluq göstərərkən hərbi qulluqçu xüsusi işçi geyimi və ya kombinezon geyinməli, mane ola biləcək elementlər çıxarılmalıdır. Çap prosesi bitdikdən sonra isə çap məhsulları cildləmə otağına gətirilir və burada ən çox diqqət yetirilən məqam kağızların sayılmasıdır. Çap dəzgahlarının saz vəziyyətdə saxlanılması üçün hər həftənin altıncı günü onların silinib, təmizlənməsi, yağlanması prosesi icra olunur.

Mətbəənin hərbi qulluqçularının vəzifə borclarını layiqincə yerinə yetirdiyini deyən xidmət rəisi onların öz işlərinə son dərəcə məsuliyyətlə yanaşdıqlarını bildirdi. O, xidmətin müvafiq normativ-hüquqi sənədlərə əsasən təşkil edildiyini diqqətə çatdıraraq, hərbi qulluqçuların günün nizam qaydalarına ciddi şəkildə əməl etdiklərini və hər zaman döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına diqqət yetirdiklərini sözlərinə əlavə etdi.

Verilən tapşırıqların öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan biri mətbəədə mütəxəssis vəzifəsində xidmət edən gizir Niyazi Qurbanovdur. Artıq on ildir mətbəə sahəsində çalışan hərbi qulluqçu həm nizam-intizamı, həm də peşəkarlığı ilə öz yoldaşlarına nümunədir. 2004-cü ildə Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2005-ci ildən isə mətbəədə mütəxəssis kimi xidmətini davam etdirməkdədir. O, işini çox sevdiyini və Daxili Qoşunlarda xidmət etdiyi üçün hər zaman qürur duyduğunu diqqətə çatdırdı. Gizir N.Qurbanov düşünür ki, hansı sahədə çalışmasından asılı olmayaraq hər kəs gördüyü işi sevməli, nailiyyətlər əldə etmək üçün səylərini artırmalıdır. Mətbəənin texniki gizir Elnur Vəliyev də özünü müsbət cəhətdən göstərən hərbi qulluqçulardandır.

O, 2008-ci ildə Dövlət Sərhəd Xidmətində müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ildən Daxili Qoşunların mətbəə xidmətində texnik vəzifəsində olan gizir E.Vəliyev də çalışqan, zəhmətsevər hərbi qulluqçudur. Aparatların sazlığına daim nəzarət edən texnik həmçinin işə davamiyyəti ilə də fərqlənir. O, qarşıya qoyulmuş xidməti tapşırıqların, elecə də qəflətən yarana biləcək çətin vəziyyətlərin çevik və dəqiqliklə aradan qaldırılması üçün əlindən gələni əsirgəmir. Deyir ki, nümunəvi olmağın ilk şərtlərindən biri də məsuliyyət hissidir. Hər kəs öz işinə məsuliyyətlə yanaşarsa, ümumi nəticə qənaətbəxş olar. Necə deyərlər, hər bir hərbi qulluqçu xidməti borcunu yerinə yetirərkən bütün qüvvəsini səfərbər etməlidir. Biz də öz növbəmizdə bu cür hərbçilərlə fəxr edir və mətbəə xidmətinin kollektivinə yüksək nailiyyətlər arzulayırıq.

**gizir N.Rzayeva**

4_Layout 1 22.12.2014 16:23 Page 1



# DİN DAXİLİ QOŞUNLAR 2014-cü İLDƏ

**Yanvarın 9-da** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-polkovnik Atilla Gülanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə ikitərəfli hərbi əməkdaşlıq münasibətləri, nəzərdə tutulan perspektivlər barədə fikir mübadiləsi aparılıb.

**Yanvarın 17-də** Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov 2014-cü ildə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıq vəziyyətinin yoxlanılması məqsədilə qoşunların Zaqatala rayonunda yerləşən 17074 saylı hərbi hissəsində olub. O, hərbi hissəyə ümumi baxış keçirib, şəxsi heyətin sosial-məişət şəraiti və xidməti-döyüş fəaliyyəti ilə maraqlanıb.

**Yanvarın 18-də** isə Daxili Qoşunların Komandanı Şəki şəhərində yerləşən hərbi hissədə şəxsi heyətin sosial-məişət şəraiti ilə maraqlanıb, əsgər valideynlərini qəbul edərək onların müraciətlərini dinləyib.

**Yanvarın 19-dan 24-dək** Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Baş Kadrlar və Planlaşdırma-prinsiplər İdarələrinin zabitlərindən ibarət nümayəndə heyəti Daxil Qoşunlara rəsmi səfər edib. Səfərin əsas məqsədi Jandarm Qüvvələri ilə Daxili Qoşunlar arasında kadr məsələləri üzrə qarşılıqlı təcrübə mübadiləsinin aparılması olub.

**Yanvarın 25-də** Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların Qubada yerləşən hərbi hissəsinə səfər edib və xidməti-döyüş fəaliyyətinin təşkili, şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış olub.

**Fevralın 1-də** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların Bərdə rayonunda yerləşən 16077 saylı hərbi hissəsində olub. Daxili Qoşunların Komandanı hərbi hissədə keçirilən xüsusi-taktiki təlimi izləyib, şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib.

**Fevralın 3-də** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasına rəsmi səfər edib. Fevralın 6-dək davam edən səfər çərçivəsində o, Türkiyə Respublikasının Jandarm Baş Komandanı ordu generalı Servet Yörük, Hərbi Akademiyalar Komandanı ordu generalı Yalçın Ataman, Jandarm Təlim Komandanı general-polkovnik İbrahim Yaşar, Jandarm Məktəblər Komandanı general-leytenant Ali Lapanta, Ankara Jandarm Bölgə Komandanı general-mayor Musa Çitil və digər vəzifəli şəxslərlə, həmçinin İstanbul şəhərində yerləşən Hərbi Akademiyada təhsil alan azərbaycanlı zabitlərlə görüşüb.

**Fevralın 16-da** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların 67987 saylı hərbi hissəsində əsgər valideynləri ilə görüşüb. Görüşün təşkil olunmasında əsas məqsəd valideynlərin müraciətlərinin, mövcud şərait barədə onların fikirlərinin dinlənilməsi olub.

**Fevralın 22-də** Daxili Qoşunların şərəfli döyüş yolu keçmiş 16075 saylı hərbi hissəsinin 25-ci ildönümü təntənəli şəkildə qeyd olunub. Tədbirdə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının təbriki şəxsi heyətə çatdırılıb.

**Daxili Qoşunların yaranmasının 22-ci ildönümü ərəfəsində** 99713 saylı hərbi hissəsinin ərazisində zabit və gizirlər üçün yeni tikilmiş yaşayış kompleksi istifadəyə verilib. Bu münasibətlə keçirilmiş tədbirdə Azərbaycan Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov iştirak edib.

**Martın 12-də** Daxili Qoşunların yaranmasının 22-ci ildönümü münasibətilə Baş İdarədə təntənəli mərasim keçirilib. Tədbirdə respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov, Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini general-leytenant Vahid Əliyev də iştirak ediblər. Tədbirdə xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya dövlət təltifləri və yeni rütbələr təqdim edilib.

**Martın 12-də** yaranmasının 22-ci ildönümünü təntənəli şəkildə qeyd edən Daxili Qoşunların şəxsi heyəti dövlətçilik tariximizin, dövlət atributlarımızın öyrənilməsində müstəsna əhəmiyyət kəsb edən Dövlət Bayrağı Meydanında olub.

**Aprelin 6-da** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların 99713 saylı hərbi hissəsində şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat-təchizatı, eləcə də ərazidə aparılan quruculuq-abadlıq işləri ilə yaxından maraqlanıb.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov növbəti dəfə - **aprelin 13-də, 20-də və 27-də** qoşunların 25031, 16075, 12576, 67987 saylı hərbi hissələrində olub, əsgər valideynləri ilə görüşüb, onların müraciətlərini dinləyib.

**Aprelin 16-da** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların Naxçıvanda yerləşən 12565 saylı hərbi hissəsinə səfər edib, xidməti-döyüş fəaliyyətinin təşkili, sosial-məişət şəraiti, təlim-tədris yerləri, əsgər yataqxanaları, tibb məntəqəsində olan şəxsi heyətin səhhəti ilə yaxından tanış olub.

**Aprelin 18-də** Daxili Qoşunların 25031 saylı hərbi hissəsində hərbi xidmətə yeni qəbul olunmuş gənc əsgərlərlə "Böyük Vətən Müharibəsində Qələbənin 69 illiyi" mövzusunda görüş keçirilib. Görüşdə Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Ramiz Axundov, II Dünya Müharibəsi veteranı Mehdi Mehdiyev, Pedoqogika üzrə fəlsəfə doktoru, dosent Bəhruz Nəsirov və hərbi hissə komandanlığı iştirak ediblər.

**Mayın 6-da** Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ərəfəsində Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibinin müavini, millət vəkili Mübariz Qurbanlı və millət vəkili Aydın Mirzəzadə iştirak ediblər.

**Mayın 17-də** Müharibə şəraitində yaşayan ölkəmizdə gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi məqsədilə Bakı şəhəri 12 saylı peşə liseyinin şagirdlərinin qoşunların 67987 saylı hərbi hissəsinə gəzintisi təşkil olunub. Şagirdlər hərbi qulluqçular üçün yaradılmış hərtərəfli şəraitlə tanış olublar.

**Mayın 27-də** Respublika Günü münasibətilə DİN-in Daxili Qoşunları və Səbail rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə qoşunların 99713 saylı hərbi hissəsində təntənəli mərasim keçirilib. Daxili Qoşunların Komandanlığı və Səbail rayon rəhbərliyinin iştirakı ilə keçirilən tədbirdə rayon ictimaiyyəti, rayondakı ali məktəblərin tələbələri, orta məktəblərin yuxarı sinif şagirdləri və qoşunların şəxsi heyəti iştirak ediblər.






**Mayın 28-də** Daxili Qoşunların Nərimanov rayonunda yerləşən hərbi hissəsinin ərazisində zabit və gizirlər üçün yeni tikilmiş 12 mərtəbəli, 102 mənzilli, ümumi sahəsi 9500 kvadratmetr olan yaşayış kompleksinin istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov iştirak edib.

**Mayın 30-dan** etibarən Daxili Qoşunların rəsmi internet səhifəsi ("www.dq.mia.gov.az") işə başlayıb. İnternet səhifəsinin yaradılmasında əsas məqsəd Daxili Qoşunların ictimaiyyətlə əlaqələrinin səmərəliliyinin artırılması, habelə qoşunların həyatında baş vermiş yeniliklər barədə cəmiyyətin mütəmadi olaraq daha dolğun məlumatlandırılmasından ibarətdir.

**İyunun 6-da** Daxili Qoşunların Ali Hərbi Məktəbinin gizir hazırlayan kursun 11-ci mərhələ məzunlarının buraxılış mərasimi keçirilib. Mərasimdə DQBİ-nin vəzifəli şəxsləri ilə yanaşı, Daxili Qoşunlarda ezamiyyətdə olan Türkiyə Respublikası Jandarm Qüvvələrinin zabitləri də iştirak ediblər.

**İyunun 10-da** Türkiyə Respublikası Jandarm Baş Komandanlığının nümayəndə heyəti Daxili Qoşunlarda səfərdə olub. Polkovnik İbrahim Enver Sunqurun rəhbərlik etdiyi nümayəndə heyətini Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov qəbul edib. Görüşdə iki qurum arasında əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsindən məmnunluq ifadə olunub.

**İyunun 10-da** Azərbaycan Respublikası Müharibə Veteranları və Beynəlmiləlçi Hərbçilər İctimai Birliyinin (MVBHİB) təşəbbüsü ilə Daxili Qoşunların Ali Hərbi Məktəbində kursantlar və şəxsi heyət üçün "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən müharibə zamanı hərbi hissələrin göstərdikləri qəhrəmanlıq nümunələri" mövzusunda tədbir keçirilib.

**İyunun 13-də** Milli Gimnastika Arenasında start götürmüş Bədii Gimnastika üzrə Avropa çempionatına iyunun 15-də yekun vurulub. Tədbirin keçirildiyi arenanın daxilində və bayır əhatəsində ictimai asayişin təmini polis orqanlarının əməkdaşları ilə yanaşı, Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən yüksək səviyyədə həyata keçirilib.

**İyunun 26-da** Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirilib.

**İyunun 27-də** Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində Milli Qəhrəman Qorxmaz Eyvazova həsr edilmiş rejissor Yalçın Verdiyev tərəfindən lentə alınmış "Adına yaraşan oğul" sənədli filminin təqdimatı olub. Tədbirdə Milli Məclisin deputatları Asim Mollazadə, Qənirə Paşayeva, Aydın Mirzəzadə, Milli Qəhrəmanlar-Qorxmaz Eyvazovun, Gültəkin Əsgərovanın, Rasim İbrahimovun və Məzahir Rüstəmovun ailə üzvləri, dostları və KİV nümayəndələri iştirak ediblər.

**İyulun 9-da** Daxili Qoşunların Ali Hərbi Məktəbində Döyüş Bayrağının təqdim olunması və hərbi məktəb məzunlarının buraxılışı münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov iştirak edib.

**İyul ayının 18-də** Türkiyə Respublikasının Jandarm Qüvvələrinin Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan 9 nəfərdən ibarət daha bir heyətinin fəaliyyət müddəti başa çatıb. Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov heyətlə görüşüb, onlara göstərdikləri köməkliyə görə minnətdarlığını bildirib.

**İyulun 19-da** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov 25031 saylı hərbi hissədə xidmətə yeni qəbul olunan gənc əsgərlərlə görüşüb. O, Daxili Qoşunların qarşısında duran vəzifələr haqda geniş məlumat verərək, gənc əsgərlərə xidmətə məsuliyyətlə yanaşmağı tövsiyə edib.

**İyulun 20-də** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov "N" saylı hərbi hissədə gənc əsgərlərin valideynləri ilə görüşüb. Daxili Qoşunlarda hərbi xidmət, şəxsi heyət üçün yaradılmış şərait haqqında geniş məlumat verilən görüşdə valideynləri maraqlandıran suallar cavablandırılıb.

**Avqustun 1-də** 17077 saylı hərbi hissənin yaranmasının 5-ci ildönümü təntənəli şəkildə qeyd edilib. Bu münasibətlə şəxsi heyətə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbriki çatdırılıb, xidməti-döyüş fəaliyyətlərində uğurlar arzulanıb.

**Avqustun 4-dən 6-dək** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Bərdə rayonunda yerləşən 16077 saylı hərbi hissədə olub, hərbi hissənin döyüş hazırlığı, təlim-tədrisin vəziyyəti, şəxsi heyətin kazarma-məişət şəraiti və təminat-təhcizatı ilə maraqlanıb.

**Avqustun 5-də** DİN-in Daxili Qoşunlarının, Səbail rayon İcra Hakimiyyətinin təşəbbüsü və Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin birgə layihəsi əsasında rayonun Qarabağ müharibəsi əlilləri və veteranlarının, aztəminatlı və imkansız ailələrin uşaqlarının, təhsildə və idmanda fərqlənən şagirdlərinin Quba şəhərində yerləşən «Şahinlər» hərbi-vətənpərvərlik təmayüllü yay düşərgəsinə yola salınma mərasimi keçirilib. Avqustun 15-də yeniyetmələrin yay istirahəti başa çatıb.

**Avqustun 27-də** 25033, **28-də** isə 16073 saylı hərbi hissələrin yaranma günü qeyd edilib. İldönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı tərəfindən hər iki hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlanıb.

**Avqustun 26-dan 29-dək** polkovnik Zekeriya Demirdağın rəhbərlik etdiyi Türkiyə Respublikası Jandarm Baş Komandanlığının nümayəndə heyəti Daxili Qoşunlarda səfərdə olub. Nümayəndə heyətini Daxili Qoşunlar Komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov qəbul edib. Səfər çərçivəsində Jandarm Baş Komandanlığının zabitləri Daxili Qoşunların Ali Hərbi Məktəbində, 64412 və 16073 saylı hərbi hissələrdə hərbi qulluqçular üçün yaradılmış hərtərəfli şəraitlə tanış olublar.

**Sentyabrın 4-də** Baş İdarədə keçirilmiş tədbirdə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmrinə əsasən, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı və Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının 1-ci, 2-ci, 3-cü dərəcələri ilə təltif olunmuş hərbi qulluqçuları təbrik edib.

**Sentyabrın 4-də** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Daxili Qoşunlarda ezamiyyət müddəti başa çatan Türkiyə Jandarm Qüvvələrinin zabitləri polkovnik Eyyüp Şekeri və yeni fəaliyyətə başlayan polkovnik İzzet Cüralı qəbul edib. Görüşdə general-mayor Ş.Məmmədov polkovnik Eyyüp Şekerə uğurlu fəaliyyətinə görə təşəkkürünü bildirib və onu "Xidmətdə fərqlənməyə görə" döş nişanı ilə təltif edib. Yeni müşavir polkovnik İ.Cürala isə gələcək fəaliyyətində nailiyyətlər arzulayıb.

**Sentyabrın 9-da** Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın hərbi intizamın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş geniş tərkibdə iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov, Baş İdarənin şöbə və xidmət rəisləri, hərbi hissələrin komandirləri, komandirlərin tərbiyə işləri üzrə müavinləri və tərbiyə bölmələrinin rəisləri iştirak ediblər.

**Sentyabrın 12-də** Daxili Qoşunların Ali Hərbi Məktəbində ilk dəfə olaraq kursantların təntənəli şəkildə andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı, Baş İdarənin yüksək rütbəli zabitləri və valideynlər iştirak ediblər.

**Sentyabrın 15-də** Daxili Qoşunların Ali Hərbi Məktəbində 2014-2015-ci təlim-tədris ilinin açılış mərasimi keçirilib. Tədris ilinin açılışı münasibətilə şəxsi heyətə, pedaqoji kollektivə, eləcə də Ali Hərbi Məktəbə bu il daxil olmuş kursantlara Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik və tövsiyələri çatdırılıb.

**Sentyabrın 16-dan 18-dək** Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikasında rəsmi səfərdə olub. Səfər çərçivəsində general-mayor Ş.Məmmədov Belarus Respublikasının Daxili İşlər Naziri, milis general-mayoru İqor Şuneviç və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Yuri Karayevlə görüşüb. Görüşdə Belarusun və Azərbaycanın müvafiq qurumları arasında münasibətlərin daha da genişləndirilməsinin vacibliyi qeyd edilib.

**Sentyabrın 22-də** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Daxili Qoşunların Qəbələdəki "N" saylı hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışında iştirak edib.

**Oktyabrın 20-də** mayor Münir Yüksel Gürfilizin başçılıq etdiyi Türkiyə Respublikasının Jandarm Baş Komandanlığının nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub. Nümayəndə heyəti dörd gün ərzində Daxili Qoşunların Baş İdarəsinə, Ali Hərbi Məktəbə, eləcə də bir sıra hərbi hissələrə səfər edib. Səfərin məqsədi gənc əsgərlərin hərbi xidmətə adaptasiya prosesini öyrənmək, bu istiqamətdə görülən işlərlə tanışlıqdan ibarət olub.

**Noyabrın 12-də** Türkiyə Cümhuriyyətinin Jandarm Qüvvələri Baş Komandanı, ordu generalı Abdullah Altayın başçılıq etdiyi nümayəndə heyəti Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovla görüşüb. Görüşdə iki qurum arasında daima genişlənməkdə olan dostluq əlaqələri və əməkdaşlıq münasibətlərinin inkişafı müzakirə edilib.

**Noyabrın 19-da** 25031 saylı hərbi hissənin yaranmasının 20-ci ildönümü böyük təntənə ilə qeyd olunub. Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı şəxsi heyəti təbrik edib.

**Noyabrın 22-də** Daxili Qoşunların Baş İdarəsində Nümunəvi-göstərici Hərbi Orkestr yaranmasının 20 illik yubileyi münasibətilə şəxsi heyət qarşısında geniş konsert proqramı ilə çıxış edib.

**Dekabr ayının 16-da** Daxili Qoşunların mətbu orqanı "Əsgər" qəzetinin 22 yaşı tamam olub.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti 25031 saylı hərbi hissənin komandiri polkovnik Salamat Cəfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin şəxsi heyəti mayor Veysəl Mirzəhmətova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin şəxsi heyəti baş əsgər Aygün Mirzəyevaya **atası** və **nənəsinin** vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000